*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 yanvar 2017-ci il № 1 (2118) Qiyməti 25 qəpik


# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki



- Əziz həmvətənlər.

2016-cı il tarixdə qalır. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında üç-dörd dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmişdir, iqtisadi sabitlik təmin edilmişdir və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artmışdır. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəyyən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilmişdir. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınmışdır. Əhalinin pul gəlirləri, - baxmayaraq ki, 2016-cı il böhranlı ildir, - 7 faiz artmışdır, orta əməkhaqqı isə 9 faiz artmışdır.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq Azərbaycan 2016-cı ildə də inamla inkişaf etmişdir. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olmuşdur. Rio Olimpiya Oyunlarında idmançılarımız tarixi qələbə qazanmışdır. 18 medal qazanaraq Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman dövlətidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu, bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd edirdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etmişlər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində önəmli addımlar atılmışdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. "Cənub Qaz Dəhlizi" Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, "Cənub Qaz Dəhlizi"ni qidalandıracaq layihələr arasında təkcə "Şahdəniz" layihəsi deyil, eyni zamanda, "Abşeron" qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam edən Şərq-Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal-Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atmışdır. Demək olar ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq görülübdür. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün exit-pollar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmişdir, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan bir daha dünyaya sübut etmişdir ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən bütün dünya azərbaycanlılarını səmimi qəlbdən salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar bilirlər və bilməlidirlər ki, onların arxasında möhkəm, güclü Azərbaycan dövləti dayanır.

Əziz bacılar və qardaşlar, mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Hərbi Hava Qüvvələrinin aviabazasında növbəti yeni yaşayış binasının açılışı olub





*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən, Hərbi Hava Qüvvələrinin aviabazasında yeni inşa edilən növbəti yaşayış binasının yanvarın 6-da açılışı həyata keçirilib.*

Xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində uçuş və texniki heyət, eləcə də onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edib.

Nazir bildirib ki, yeni binaların istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Silahlı Qüvvələrdə şəxsi heyətin mənzil təminatının yüksəldilməsi istiqamətində icra olunan kompleks tədbirlərin davamıdır.

Dövlətimizin qayğısı nəticəsində son illərdə mindən çox hərbi qulluqçunun daimi mənzillə, 1400-dək hərbi qulluqçunun isə xidməti mənzillə təmin olunduğu və bu işlərin cari ildə də davam etdiriləcəyi diqqətə çatdırılıb.

Müasir silah-sursat, döyüş texnikası, aviasiya vasitələri və avadanlığın alınaraq silahlanmaya daxil edilməsini xatırladan general-polkovnik Zakir Həsənov görülən kompleks tədbirlərin ölkə başçısının Silahlı Qüvvələrə göstərdiyi qayğının bariz nümunəsi olduğunu xüsusi qeyd edib.



Yeni tikili ilə tanışlıq zamanı məlumat verilib ki, beşmərtəbəli, 50 mənzilli bina tam təmirli üçotaqlı mənzillərdən ibarətdir və bütün kommunikasiya xətləri ilə təchiz olunub. Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Mənzillə təmin olunan hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında onlarla söhbət edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

*Azərbaycan Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, 2017-ci il yanvarın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.*

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Həmin sənədə uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.



Qeyd edək ki, Prezident İlham Əliyev 2016-cı il dekabrın 8-də Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə nazirinin tapşırığına əsasən, şəhid və yaralıların ailələrinə baş çəkilib

***31 dekabr 2016-cı il.***

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.

Təsdiq olunmuş plana uyğun ictimaiyyət nümayəndələrinin iştirakı ilə hərbi hissələrə səfərlər, muzey və abidələrə ekskursiyalar təşkil edilib, eləcə də müxtəlif bayram konsertləri, viktorinalar, mədəni-kütləvi vətənpərvərlik və idman tədbirləri keçirilib.

Müdafiə nazirinin tapşırığına əsasən, bütün hərbi hissələrin komandanlıqları və şəxsi heyəti bayramlarla əlaqədar şəhid və yaralıların ailələrinə baş çəkib, onların övladlarına sovqatlar və hədiyyələr təqdim ediblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 yanvar 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 44 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Ağbulaq və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəllər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Bacarıqlı əsgər qalib gəlir

Tarixi Azərbaycan torpaqları yeraltı və yerüstü sərvətləri ilə hər zaman diqqət mərkəzində olub. Bədxah ermənilərin torpaq iddiaları səngiməkbilməyib. Daim silaha əl atmaqdan, dinc əhaliyə divan tutmaqdan belə çəkinməyiblər. Nəticədə torpaqlarımızın bir qismi işğal edilib. Ermənistan rəhbərliyi illərdən bəri münaqişənin dinc yolla həllindən boyun qaçırır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir və işğalçı Ermənistan zəbt etdiyi torpaqlarımızı qeyd-şərtsiz boşaltmalıdır. "Əgər Ermənistanla aparılan danışıqlar heç bir nəticə verməyəcəksə, onda Azərbaycan ərazi bütövlüyünün bərpası üçün bütün zəruri vasitələrdən, hətta hərb variantından istifadə edəcəkdir." Əlbəttə, Azərbaycanın tam hüququ var ki, əzəli torpaqlarını silah gücü ilə işğaldan azad etsin.

Azərbaycan humanizm prinsiplərinə sadiq qalaraq sülh danışıqları aparır, lakin bununla yanaşı, ordu quruculuğu, ordunun gücləndirilməsi prioritet məsələdir. Aprel döyüşləri zamanı əldə olunan qələbə ordumuzun son illər ərzində böyük inkişaf yolu keçdiyinin göstəricisi və Silahlı Qüvvələrimizin bu gün qarşıya qoyulan bütün vəzifələri icra etməyə qadir olduğunun sübutudur.

Hərbi hissələrdə ezamiyyətdə olarkən müasir silah-sursat, döyüş texnikası, şəxsi heyətin yüksək səviyyəli məişət şəraiti ilə yaxından tanış oluruq. Bütün gördüklərimizin aşıladığı könül xoşluğu ilə yanaşı, əsgərlərimizi tanımaq, onlarla döyüş mövqeyində həmsöhbət olmaq da bizdə xoş ovqat yaradır.

...Şaxtalı qış günüdür, təbiət ağ rəngə boyanıb. Hər tərəf qar olsa da, postlara gedən yollar təmizlənib.

Taqım komandiri baş leytenant Nihad Şahbazov haqqında qərargahda cavabdeh zabitlərdən də eşitmişdim. Onun haqqında deyilənlər səbəbsiz deyil, çünki komandiri olduğu şəxsi heyətin uğurlar qazanmasında gənc zabitin rolu böyükdür. Hərbi vərdişləri və qazandığı döyüş bacarığını əsgərlərinə məharətlə öyrədir, onların təcrübəli döyüşçü kimi hazırlanmasında əlindən gələni əsirgəmir. Hərbi hissənin kollektivi onu vətənpərvər zabit kimi tanıyır. Çünki özünü dərk etdiyi vaxtdan ermənilərin torpaqlarımızı işğal etməsini, dinc əhaliyə divan tutmasını, soyqırımlar törətməsini eşidib. Böyüdükcə düşmənə nifrəti də böyüyüb. Hələ məktəbdə oxuyarkən atasına hərbçi olmaq istədiyini deyib və xeyir-dua alaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yollanıb. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini uğurlu başa vurub və "N" hərbi hissəsində zabit kimi xidmətə başlayıb.



- Hələ yeniyetmə vaxtımdan hərbçi olmaq qərarına gəldim, - dedi Nihad. - Hər insanın bir həyat yolu var. Mən də həyatda ən çətin, amma şərəfli yolu seçdim. Hərbi liseydə oxuyanda əynimə forma geyindim və bu formanın məsuliyyətini hiss etməyə başladım. Bu peşəyə ürəkdən bağlı olduğum üçün hər çətinliyə dözdüm, cəsarətli olmağı bacardım. Bir həqiqət var ki, bu yolu seçənlər zamanla bu peşənin çətinliklərini unudur. Düşmən qarşısında birinci sənsən, Ali Baş Komandan əmr verdiyi gün Qarabağa, Şuşaya, Laçına, Kəlbəcərə birinci sən ayaq basacaq, bayrağı sən sancacaqsan. Tarixə qızıl hərflərlə bizlərin adı həkk olunacaq. Bundan böyük səvinc, xoşbəxtlik varmı?

Qısa zamanda zabitin tabeliyində bacarıqlı və intizamlı kollektiv formalaşıb. Gənc zabit əsgərləri haqqında fərəhlə danışır, hər birinin ayrı-ayrılıqda bir qəhrəman olduğunu deyir.

Manqa komandiri kiçik çavuş Zamir Cabayev olduqca təcrübəli və vətənpərvərdir. Hərbi xidmətə Xaçmaz rayonundan çağırılıb. Komandirin dediyinə görə, Cabayev müddətli həqiqi hərbi xidmətini başa vurduqdan bir müddət sonra ordu sıralarına qayıdıb, Vətənin dar günündə cəbhə xəttində xidmət etmək qərarına gəlib.

Manqa komandiri olaraq şəxsi heyət arasında yetərincə nüfuzu olan Zamirlə söhbətimdən öyrənirəm ki, müddətli həqiqi hərbi xidmətini ön xətdə yerləşən hərbi hissələrdən birində atıcı kimi başa vurub. Dostlarıyla söhbətlərində hərbi xidmətini, əsgər yoldaşlarını tez-tez xatırlayıb. Və bir gün qətiyyətli şəkildə ömrünü, taleyini hərbi işə həsr etməyi qərara alıb.

- Komandirlərim hər zaman silah və texnikanın sirlərini, Vətənə sədaqətli olmağı, üzərində doğulduğun torpaq uğrunda canından keçməyi öyrədiblər mənə, - dedi manqa komandiri. - Havasını sinəsinə çəkdiyin, hər neməti ilə qidalandığın yurdun keşiyində dayanmağı, Ali Baş Komandan əmr verdiyi gün döyüşkən ruhda olmağı bacarmalısan. Müddətli xidmətim dövründə daim hərbi işin sirlərini öyrənməyə çalışırdım, bu gün də komandirlərimdən öyrənməyə səy göstərir və təcrübəmi əsgərlərimə aşılayıram.

Taqım komandiri ilə döyüş mövqelərini gəzərək növbədə olan əsgərlərlə tanış oluram.

Atıcı əsgər Əli Hadıyev öz mövqeyində növbədədir. Hərbi xidmətə Masallı rayonundan çağırılmış əsgər nümunəvi xidməti ilə fərqlənənlər sırasındadır. 6 ayın əsgəri bildirir ki, cəbhə bölgəsində xidmət etmək hər şeydən öncə fəxrdi və hər birimiz növbədə olarkən gözümüzü nişangahdan ayırmırıq. Ani diqqətsizliyimiz düşmənin təxribat törətməsinə gətirib çıxara bilər. Azərbaycan əsgərinin şərəfini uca tutmaq üçün vəzifəmizin öhdəsindən layiqincə gəlməyə çalışırıq, - dedi əsgər. - Xidmət dövründə qazandığımız hərbi vərdişlər bir döyüşçü kimi formalaşmağımızda əsas vasitədir. Təcrübəli və bacarıqlı əsgər isə mütləq qalib olacaqdır.



Qumbaraatan əsgər Tural Hüseynov ordu sıralarına Şamaxı rayonundan çağırılıb, xidmətinin 12-ci ayıdır. Komandirləri tərəfindən xüsusilə vurğulanan iri cüssəli, sərt baxışlı əsgərə görə, Vətən keşiyində durmaq müqəddəs vəzifədir. "Azərbaycan xalqı vətənpərvər, döyüşkəndir. Hər zaman dostlarım arasında da, əsgər yoldaşlarımla da söhbətlərimdə demişəm ki, Azərbaycanda dünyaya göz açan kişiləri ana beşiyindən Vətən keşiyinə aparan bir yol var. Bu yola Vətən sevgisi ilə çıxırıq. Vətən və ana sevgisini müqəddəs bilirik."

- 6 aydır ki, hərbi xidmətdəyəm, təcrübəli komandirlərimin səyləri nəticəsində vəzifəmi mükəmməl bilirəm. Əsgər yoldaşlarımın da hər biri öz vəzifəsinin öhdəsindən layiqincə gəlir, - deyə əsgər Asif Lalayev də söhbətimizə qoşulur. - Təlim və məşğələlərdə həvəslə iştirak edib, çox şey öyrənmişəm. Mənim vəzifəm atıcıdır. Silahımın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilirəm. Ən böyük sevincimi aprel döyüşlərində yaşamışam. Aprel döyüşləri tarixi zəfərimiz, düşmənə gücümüzün sübutudur. Ali Baş Komandan əmr verdiyi gün mən də silahdaşlarımla çiyin-çiyinə döyüşəcəyəm.



Əsgər Niyaməddin Abbasov Lerik rayonundandır. Xidmətini başa vurmasına bir neçə gün qalan əsgər 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni il bayramını ön xətdə, döyüşçü yoldaşları ilə birgə keçirməkdən qürurlandığını dedi. - İkinci dəfədir ki, bu bayram günlərini ailəmdən ayrı keçirəcəyəm. Amma sevincliyəm. Bunu yaşamayan bilməz. Çünki əsgər yoldaşlarımla, komandirlərimlə çiyin-çiyinə, düşmənlə üz-üzə keçirəcəyəm bu bayramı. Biz burada olsaq da, qayğılarını bizdən əsirgəməyən Ali Baş Komandanımız, Müdafiə nazirimiz və qədirbilən xalqımız var.

Taqım komandiri yenidən söhbətə qoşulub deyir ki, burada hamımız gəncik. "Bir gün yaşa dolacağıq. Düşünün ki, neçə illərdən sonra təsadüfən qarşılaşırıq. Hal-əhval tuturuq. Hansı birimizin övladının hərbi xidmətdə olduğunu soruşduqda, Şuşa, Kəlbəcər, Laçın, Qarabağ bölgəsində xidmət etdiklərini öyrənirik. Hansı ki, o torpaqları biz azad etmişdik, indi övladlarımız qoruyur. Bax, budur, ən böyük arzumuz."

Əlbəttə, o gün gələcək və biz də Qarabağdan yazılar verəcəyik...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Ordu quruculuğunda növbəti uğurlu il başa çatdı

*2016-cı il başa çatdı. Ötən müddətə nəzər saldıqda aydın görünür ki, yola saldığımız bu il ordu quruculuğunda da uğurlu il olub. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca və prioritet məsələ olaraq qalmaqdadır. Silahlı Qüvvələrdə bütün istiqamətlərdə aparılan islahatlar 2016-cı ildə də davam etdirildi. İslahatların kompleks şəkildə həyata keçirilməsi Silahlı Qüvvələrimizin aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməsini təmin etdi. Ölkə rəhbərliyinin həyata keçirdiyi iqtisadi islahatlar Azərbaycanın bütün sahələrdə inkişafına təkan verdiyi kimi, hərbi xərclərin də sürətlə yüksəlməsinə və qısa müddətdə hərbi büdcəmizin dəfələrlə artmasına səbəb olub.*



Növbəti ildə də bu istiqamətdə artım olacaqdır. Ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin təmin edilməsi xərcləri artırılaraq 2017-ci ildə 2,6 milyard manatdan çox təşkil edib. Cari ildə ordumuzun silahlanmasına ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Hərbi qulluqçuların sırf döyüş hazırlığı ilə məşğul olmaları üçün dövlətimiz tərəfindən hər bir şərait yaradılıb. 2016-cı ildə Silahlı Qüvvələrin inkişaf proqramı döyüş və mənəvi-psixoloji hazırlığı, hərbi təhsili, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasını və digər sahələri əhatə edib.

Silahlı Qüvvələrin inkişafını müəyyən edən əsas amillərdən biri də şəxsi heyətin müqavilə əsasında hərbi qulluqçularla komplektləşdirilməsi olub. Əsas döyüş təminatını müəyyən edən vəzifələrə ixtisaslı mütəxəssislərin və peşəkar hərbi qulluqçuların qəbul edilməsi ordumuzun döyüş hazırlığının yüksəlməsinə böyük imkanlar yaradıb.

Ötən il hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində də vacib addımlar atılıb. Bakı, Gəncə və Naxçıvanda mindən çox hərbi qulluqçu daimi mənzillə, ölkənin müxtəlif bölgələrində isə iki minədək hərbi qulluqçu xidməti mənzillə təmin olunub.

Silahlı Qüvvələrimizin şəxsi heyətinin əksər hissəsi yeni müasir hərbi şəhərciklərə yerləşdirilib. Xüsusən cəbhəboyu zonada qısa müddətdə hərbi şəhərciklər tikilərək istifadəyə verilib.

Heç şübhəsiz ki, Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatların nə dərəcədə uğurlu olmasına apreldə həyata keçirilən əks-həmlə əməliyyatı əyani sübutdur. Hərbi bölmələrimizin bu əməliyyatda əsas hədəfi Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttinə yaxın kəndlərdə yaşayan və düşmən tərəfindən daim atəşə məruz qalan azərbaycanlı dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə erməni hərbi birləşmələrinin atəş nöqtələrini zərərsizləşdirmək idi. Bu məqsəd uğurla yerinə yetirildi.

Erməni silahlı bölmələri aprel döyüşlərində böyük itkilərə məruz qaldı. Minə yaxın düşmən öldürüldü və yaralandı. Ermənilərin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri darmadağın edildi.

Silahlı Qüvvələrimiz tərəfindən 2000 hektardan artıq torpaq azad edildi, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı yollar və daha çox ərazilər əməliyyat baxımından ordumuzun nəzarətinə keçdi. İşğalçı dövlətin hərbi-siyasi strategiyası iflasa uğrayıb. Bu hadisələrdən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyində baş verən neqativ hallar özünü hərtərəfli şəkildə büruzə verdi.

Aprel döyüşləri zamanı Silahlı Qüvvələrimizin fəaliyyətinə ən böyük qiyməti Prezident İlham Əliyev verdi. Onun "aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir" fikri hadisələrə verilən ən dolğun qiymətdir.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan əsgəri erməni xalqına qarşı deyil, Ermənistanın cinayətkar, kriminal hərbi siyasi-rejiminə, əlləri günahsız dinc əhalinin qanına bulaşmış rəhbərliyinə qarşı ədalətli müharibə aparır və işğal edilmiş ərazilərimizin azad edilməsinə nail olmaq istəyir.

Aprel hadisələrindən sonra ilk növbədə dünya ictimaiyyəti, beynəlxalq qurumlar, təşkilatlar bir daha əmin oldular ki, Azərbaycan xalqı ərazilərinin işğal altında qalması ilə barışmayıb. Bu, Ermənistan hakimiyyəti üçün də bir dərs olmalıdır. Yəqin ki, onlar lazımi nəticələr çıxaracaq və danışıqlar prosesində konstruktiv mövqe ilə çıxış edəcəklər. Uzun müddət davam edən status-kvo tezliklə dəyişməli, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan əsgəri Dağlıq Qarabağ münaqişəsinin "hərbi yolla həlli yoxdur" fikrini təkrarlayanlara real şəkildə sübut etdi ki, torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi mümkündür.

Ermənistanda hakimiyyəti terrorla ələ keçirmiş və öz xalqına qənim kəsilmiş şəxslər son illər ərzində yüzlərlə qeyri-adekvat, real vəziyyəti əks etdirməyən və absurd bəyanatlarla çıxış ediblər. Azərbaycan Ermənistanla silahlanma yarışına girməyib və belə bir fikrimiz də yoxdur. Ancaq eyni zamanda, hücum silahları ilə yanaşı, hava məkanımızın qorunması, hərbi və mülki obyektlərin, strateji əhəmiyyətli kommunikasiya xətlərinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində də ciddi kompleks tədbirlərin görülməsi zamanın tələbidir və bu istiqamətdə də uğurlu fəaliyyətlər həyata keçirilir.

Bu, ərazilərimizi müdafiə etmək üçün atdığımız addımlardır və bizim haqqımızdır. Ali Baş Komandanın tapşırığına əsasən, Silahlı Qüvvələrin modernləşdirilməsi çərçivəsində Hərbi Hava Qüvvələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi və yüksək texniki standartlar səviyyəsinə çatdırılması, eşelonlaşdırılmış hava hücumundan müdafiə sisteminin yaradılması istiqamətində işlər daim davam etdirilir.

Bu yaxınlarda ən müasir və yüksək texnologiyalar əsasında yaradılmış avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilərək yeni istifadəyə verilən Qırıcı Aviasiya Bazası və Radiolokasiya hərbi hissəsinin Birləşmiş Komanda Məntəqəsinin açılışı həyata keçirildi, müxtəlif bölgələrdə hava hücumundan müdafiə bölmələrinin yeni məntəqələri yaradıldı.



"İldırım" və modernləşdirilmiş S-125, eləcə də digər zenit-raket komplekslərindən döyüş atışlarını izlədikdən sonra əminliklə deyə bilərik ki, müasir texnoloji avadanlıqla təchiz edilən Hərbi Hava Qüvvələri döyüş növbətçiliyinin yüksək səviyyədə aparılması, müvafiq qüvvələrin qısa müddətdə döyüş vəziyyətinə gətirilməsi, eləcə də istənilən iqlim şəraitində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanılması, təhlili, qərarların vaxtında qəbulu, bütün hədəflərin məhv edilməsi və döyüş tapşırıqlarının maksimal səmərəli icrasını təmin etmək imkanına malikdir.



Ermənistanın hərbi-siyasi rəhbərliyi birmənalı olaraq dərk etməlidir ki, Azərbaycan Silahlı Qüvvələrinin əks tərəfə tuşlanan müasir, uzaqmənzilli, yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik minlərlə raketi bütün Ermənistan ərazisindəki hərbi və müdafiə əhəmiyyətli obyektləri, eləcə də strateji kommunikasiya sistemlərini məhv etməyə hazırdır və istənilən an bu tapşırığı yerinə yetirə bilər.

Son illər ərzində Azərbaycanda hərbi-sənaye kompleksi əhəmiyyətli dərəcədə inkişaf edib. İki nazirlik arasında Silahlı Qüvvələrin yerli istehsal olan pilotsuz uçuş aparatları ilə təmin edilməsi barədə anlaşma memorandumunun imzalanması da bu qəbil tədbirlərdəndir. Sənədə əsasən, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan yüzlərlə yeni növ kamikadze tipli "Zərbə" və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatları yaxın vaxtlarda Silahlı Qüvvələrimizin istismarına veriləcəkdir. Aprel döyüşlərində bu tip PUA-nın nə dərəcədə səmərəli tətbiq olunduğu hamımızın yadındadır. Bunu düşmən tərəfi də təsdiq edib. Məhz bu səbəbdən əməliyyat və cari şərait də nəzərə alınmaqla ordunun ehtiyaclarını təmin edəcək sayda kifayət qədər PUA-nın əldə edilməsi nəzərdə tutulub. Azərbaycanın, eləcə də dost ölkələrin hərbi sənaye imkanları nəzərə alınmaqla müxtəlif çeşiddə hərbi təyinatlı məhsulların əldə olunması nəzərdə tutulur və bu proses davamlı xarakter daşıyacaqdır.

Heç kimə sirr deyil ki, hərbi zavodlarımızda mindən artıq çeşiddə müdafiə təyinatlı məhsul istehsal edilir. Belə ki, Azərbaycanın hərbi sənayesində bütün növ patronlar, tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz uçuş aparatları istehsal olunur.

Regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla, o cümlədən düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə ordunun silahlanmasına inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli döyüş texnikaları, eləcə də digər hərbi təyinatlı məhsullar daxil edilir.

Heç şübhəsiz, Ali Baş Komandanın tapşırığına əsasən, 2017-ci ildə də ordu quruculuğu prioritet sahələrdən biri olacaqdır. Bu gün əminliklə deyə bilərik ki, ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan Ordusu hər bir əmri dərhal və yüksək peşəkarlıqla yerinə yetirməyə hazır və qadirdir.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

*Gənc zabitlərimiz*

# “Qüdrətli ordumuzun zabiti olmağımla fəxr edirəm”



*Hər bir xalqın qanı bahasına əldə etdiyi müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına təminat yaradan ən başlıca amillərdən biri onun yüksək döyüş əzminə malik ordusudur. Qəlbində Vətən, millət sevgisi olan hər bir vətəndaş dövlətinin ordusu ilə daim qürur duyur, onun qüdrəti ilə öyünür. Təqdirəlayiq haldır ki, son illər ordumuzun hərbi gücündən ruhlanan gənclər hərbi peşələrə dərin maraq göstərirlər. İbrahim Cəfərov də belə gənclərimizdəndir.*

Baş leytenantla bu yaxınlarda cəbhə xəttindəki hərbi bölmələrdən birində tanış oldum. Qəzetimizdə müntəzəm yer alan "Gənc zabitlərimiz" rubrikasına yazı hazırlayacağımı bildirəndə qərargahda ən bacarıqlı bölmə komandirlərindən biri kimi baş leytenant İbrahim Cəfərovun adını çəkmişdilər.

Ön xətdə gənc zabitlə rastlaşanda o tabeliyindəki şəxsi heyətin bir qrupunu döyüş növbətçiliyinə təlimatlandırırdı. Onun əsl komandirə xas olan liderlik xüsusiyyəti, idarəçilik bacarığı diqqətimi çəkdi. Bölmə komandiri əsgərlərə döyüş növbətçiliyinin hərbi qulluqçunun həyatında ciddi bir tapşırıq olduğunu təmkinlə izah edərək bildirdi ki, qarşınızda mühüm və müqəddəs vəzifə - Vətənimizin sərhədlərinin düşməndən göz bəbəyi kimi qorunması dayanır. "Hər bir əsgər başa düşməlidir ki, döyüş növbətçisi olduğu vaxt mövqelərimizin düşmənin gözlənə biləcək təxribatlarından müdafiə olunması kimi məsuliyyətli bir tapşırığı öhdəsinə götürür. Deməli, yetərincə ayıq-sayıq olmalı, bütün əraziləri iti nəzərlə müşahidə altında saxlamaq gərəkdir."

Əsgərlər döyüş növbəsinə yola salındıqdan sonra gənc zabitlə ətraflı tanış olmaq imkanı qazandım. Baş leytenant Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi Liseyi uğurla bitirdikdən sonra təhsilini Bakıda, ali hərbi təhsil ocağında davam etdirib.

**- Yeniyetməliyində zabit olmaq fikri səndə necə yarandı?**

- Əslində, bu peşəni seçməyimdə heç kimin rolu, müdaxiləsi olmayıb. Özüm bu sənəti seçməyə qərar verdim və seçimimdə qətiyyən peşman deyiləm. Hərbi peşə kişilik, qəhrəmanlıq peşəsidir. Yeniyetmə yaşlarımda mavi ekranda gənc zabitlərin əsgərlər qarşısında məğrur duruşunu, komanda verdiklərini görəndə düşünmüşəm ki, mən də komandir olacam. Məndə bu peşəyə sevgi erkən yaşlarımdan oyanıb. Həm də dövlətimizin ordu quruculuğuna verdiyi önəm, Ali Baş Komandan İlham Əliyevin sərhəd bölgələrinə səfərləri zamanı cəbhə xəttində əsgər və zabitlərlə görüşləri bir vətəndaş olaraq qəlbimdə hərbçi peşəsinə maraq doğururdu. Bir dəfə Prezidentimiz Ağdam bölgəsində xidmətdə fərqlənmiş zabitlərə şəxsən mükafat təqdim edəndə, bir anlıq özümü onların yerində hiss etdim. Onda 7-ci sinifdə oxuyurdum. Hər bir zabit dövlət başçısına raport verərək amiranə səslə "Azərbaycan Respublikasına xidmət edirəm!", demişdi. Həmin anda nə qədər qürur, fərəh hissi yaşadım. "Kaş o zabitlərin biri də mən olaydım" düşündüm. Bax, belə hisslərin təsiri ilə zabit peşəsini seçdim.



**- Cəbhə bölgəsində xidmətə başlamaq sənə çətin gəlmədi ki?**

- Xeyr. Əksinə ön xətdə xidmət etmək adamın məsuliyyət hissini qat-qat artırır. Səngər həyatı mərdlərin, cəsurların ünvanıdır. Burada rastlaşdığın çətinliklər sənə dözümlü, təmkinli, soyuqqanlı olmağı və istənilən ekstremal şəraitdə təkbaşına qərar qəbul etməyi aşılayır. Bu xüsusiyyətlər hərbi peşəni seçən gənclərin xarakterini formalaşdırır. Doğrudur, əvvəl adama elə gəlir ki, belə mürəkkəb şəraitdə xidmət aparmaq çətin olar, amma bu peşəyə ürəkdən bağlananda, hər şey adiləşir. Burada zabit-gizirlər də hər addımda səndən köməyini, qayğısını əsirgəmir. Və qısa bir zaman ərzində xarakterin formalaşır, sən də çətin şəraitin özəlliklərinə alışırsan.

Baş leytenant deyir ki, hərbi təhsil dövründə qazandığı nəzəri biliklər, təcrübə-sınaq dövrlərində əxz etdiyi hərbi vərdişlər də onun hazırlıqlı zabit kimi yetişməsinə səbəb olub. "Həm hərbi liseydə, həm də ali hərbi təhsil illərində döyüş təcrübəsinə malik olan zabitlərlə təmasda olmaq, onların müharibə illəri ilə bağlı xatirələri, hərbi əməliyyatlar haqqında söhbətləri bizə çox şey öyrədirdi. Mən də o zaman müəllimlərimə söz vermişdim ki, ordu sıralarında bir zabit olaraq nümunəvi xidmətimlə onlara başucalığı gətirəcəm".

Sonda bölmə komandirinin tabeliyindəki əsgərlərlə tanış oldum. Hərbi xidmətə Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş gənclərin hər biri özünü səmimi bir kollektivdə hiss etdiyini bildirdi, komandirlərinin tələbkarlığından və qayğıkeşliyindən ağızdolusu danışdı. Kiçik çavuş Asəf Xasayevə görə, baş leytenant İbrahim Cəfərovu bir komandir kimi fərqləndirən ən başlıca cəhət tabeliyində olan hər bir əsgərin qayğı və problemlərinə diqqət göstərməsidir. "Aramızda elə bir məsələ olmaz ki, komandir ondan xəbər tutmasın. O hər birimizlə maraqlanır, kimin problemi yaranırsa, qayğısını əsirgəmir və lazım gələndə yuxarı komandanlığa müraciət edərək hamıya kömək etməyə səy göstərir. Məhz bu keyfiyyətlərinə görə biz komandirimizə minnətdarıq."

Göründüyü kimi, gənc komandir həm tabeliyində olan şəxsi heyətin, həm də komandanlığın etimadını qazanıb. Sözsüz, bu etimad onu daha da ruhlandıracaq və hərbi xidmətində yeni-yeni uğurlar qazanacaq.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müharibə əlilləri və şəhid ailələri daim qayğı ilə əhatə olunur

*Azərbaycan Respublikası Qarabağ Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Şəmkir rayon şöbəsində görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş konfrans keçirilib. Konfrans iştirakçıları müstəqilliyimizin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsini Şəhidlər xiyabanında yad edərək, məzarları üstə gül qoydular. Sonra tədbir müasir memarlıq nümunəsi sayılan Heydər Əliyev Mərkəzində davam etdirildi. Mərkəzə gələnlər ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoyaraq, onun xatirəsinə hörmət və ehtiramlarını bildirdilər.*

Birliyin rayon şöbəsinin sədri Müsahib Zeynalov konfransda çıxış edərək bildirdi ki, müasir Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyevin fəaliyyətində Qarabağ əlillərinə, müharibə iştirakçılarına, şəhid ailələrinə diqqət və qayğı göstərilməsi əsas yer tuturdu. Bu ənənə hazırda Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə həyata keçirilən sosial siyasət xalqımız tərəfindən rəğbətlə qarşılanır. Rayonumuzda Qarabağ əlili və şəhid ailələri mənzillə, minik maşını ilə təmin ediliblər. 240 şəhid ailəsinə həmişə diqqət və qayğı göstərilir. Şəhidlərin xatirəsi həmişə uca tutulur. Orta məktəblərə, küçələrə onların adları verilib. Təhsil ocaqlarında şəhidlərin ömür və döyüş yollarından bəhs edən guşələr yaradılıb. Vətənpərvərlik mövzusunda keçirilən mədəni-kütləvi tədbirlərdə Qarabağ əlilləri və şəhid ailələrinin üzvləri də fəal iştirak edirlər. Belə görüşlər məktəblilərin vətənpərvərlik ruhunda formalaşmasına kömək edir.

Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev çıxışında müstəqilliyimizin qorunub möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən söhbət açdı. Bildirdi ki, dahi şəxsiyyətin böyük dövlətçilik təcrübəsinin, müdrik siyasətinin bəhrəsidir ki, ölkəmiz müstəqilliyin ilk illərindəki təhlükələrdən xilas edildi. "Düşmənə qarşı hərbi əməliyyatlarda şəmkirli gənclər də fədakarlıqla iştirak etdilər. Bu gün bu konfransda iştirak edənlərin bir qismi o döyüşlərin iştirakçısıdır. Ötən müddətdə ordu quruculuğunda çox böyük yüksəlişə nail olunub. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində böyük uğurlar qazanılıb. Azərbaycan Ordusu regionun ən güclü, qüdrətli ordusudur. Bu fakt ötən ilin aprelində düşmən təxribatının qarşısının alınmasında bir daha özünü təsdiq etdi. Sübut olundu ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Həmin döyüşlərdə beş nəfər şəmkirli gənc də qəhrəmanlıqla həlak olmuşdu. Onların xatirəsi şəmkirlilər tərəfindən həmişə uca tutulacaq".

Millət vəkili Sona Əliyeva çıxış edərək ölkəmizdə həyata keçirilən uğurlu daxili və xarici siyasət sahəsində yüksəlişə, tərəqqiyə nail olunduğunu diqqətə çatdırdı. Ölkə rəhbərliyi tərəfindən ordu quruculuğuna xüsusi önəm verildiyini vurğulayaraq bildirdi ki, ölkəmizdə müharibə əlillərinə, şəhid ailələrinə daim diqqət göstərilir. "Onların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən konkret tədbirlər həyata keçirilir. Rayonumuzda yaşayan Qarabağ əlilləri, şəhid ailələri də bu qayğıyla əhatə olunublar".

Qarabağ əlilləri Xanlar Əliyev, Fuad Bədəlov, ehtiyatda olan zabitlər Dilqəm Əliyev, Elçin Musayev də çıxışlarında fikir və təkliflərini bölüşdülər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Horadiz əməliyyatı hərb tariximizə qızıl hərflərlə yazılıb

*Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad olunub.*



AZƏRTAC xəbər verir ki, bu münasibətlə Horadiz şəhərindəki Heydər Əliyev adına Parkda rayon ictimaiyyətinin, "N" hərbi hissəsinin əsgərlərinin, Qarabağ müharibəsi veteranlarının, Horadiz əməliyyatında iştirak etmiş döyüşçülərin iştirakı ilə mərasim keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək 1990-cı illərin əvvəllərindəki hərbi-siyasi vəziyyətdən, Horadiz əməliyyatının əhəmiyyətindən danışıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə ordu quruculuğu sahəsində görülən işlər nəticəsində cəbhədəki vəziyyətdə dönüş yaranıb. 1994-cü ilin yanvarın əvvəllərində həyata keçirilən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı nəticəsində qısa müddətdə 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib. Azərbaycan Ordusu bu uğura ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək hərbçilərdə güclü ruh yüksəkliyi yaratması nəticəsində nail olub.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadizdə və işğaldan azad olunmuş digər yaşayış məntəqələrində infrastrukturun bərpasına başlanılıb. Ötən dövr ərzində təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri tikilib və bərpa olunub. Ərazidə məskunlaşmış əhalinin elektrik enerjisi, su, qaz, yol və başqa məişət qayğıları həll edilib. 2003-cü ildə prezident seçkiləri ərəfəsində "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq" - deyən Prezident İlham Əliyevin sərəncamları ilə rayon ərazisində məcburi köçkünlər üçün 17 qəsəbə salınıb. Horadiz qəsəbəsinə şəhər statusu verilib, işğal nəticəsində dağıdılmış minlərlə ev bərpa edilib. Son 5 ildə Prezident İlham Əliyev Füzuliyə 3 dəfə səfər edib, rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 7 sərəncam imzalayıb.



Tədbirdə çıxış edən Milli Məclis sədrinin müavini Bahar Muradova Qarabağ müharibəsi tarixində Horadiz əməliyyatının xüsusi yeri olduğunu vurğulayıb. Bildirib ki, məhz Horadiz əməliyyatı ilə Azərbaycan Ordusunun qələbə əzmi özünə qayıdıb. "Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusuna çevrilib. Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad etməyə hazırdır", - deyə Bahar Muradova bildirib.

"Azərbaycan bayrağı" ordenli Sevindik İsmayılov, Horadizdə erməni bayrağını endirib Azərbaycan bayrağını sancan Şakir Bayramov və digər çıxış edənlər Horadiz əməliyyatını hərb tariximizin ən parlaq səhifələrindən biri olduğunu vurğulayıblar.

Qeyd olunub ki, cəbhə bölgəsində düşmənlə bir neçə addımlıqda yaşayan və işləyən füzulililər ölkədə həyata keçirilən mütərəqqi islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə tikinti-quruculuq, abadlıq işlərini gündən-günə genişləndirirlər. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.

Çıxışlarda Prezident İlham Əliyevin qətiyyəti sayəsində işğal altında olan bütün torpaqlarımızın, o cümlədən Füzuli rayonunun digər ərazilərinin də düşmən tapdağından azad olunacağına əminlik ifadə edilib.

Tədbir rayonun incəsənət ustalarının konsert proqramı ilə davam edib.

*Qəlbimizdə alovlanan intiqam və Vətən eşqi daim alovlanaraq düşmənlərimizin yurd-yuvasını yandıracaq. Gələcək nəsillərə çıraq tutaraq, yaxın keçmişimizin yaddan çıxmasına imkan verməyəcək. Necə ki, Vətən keşiyində dayanan gizir Elçin Nəcəfov kimi. Qarabağsız Azərbaycan ola bilərmi? Yox! Ola bilməz! Əgər bir millətin torpağını qoruya biləcək mərd oğlu yoxdursa, o millətin yaşamaq haqqı da yoxdur. Azərbaycan igid oğullar diyarıdır. Həmin oğullar Vətənin şərəfini qanı bahasına qorumaq iqtidarındadır. İnsan ömrünün pillələri var ki, o, bu pillələrlə öz istəyinə, arzusuna, məqsədinə doğru addım atır. Xoşbəxt o adamdır ki, atdığı addımların hamısı uğurlu olur və bu uğur, bu səadət onu zirvələrə yüksəldir, bir ocağın övladlığından çıxarıb, bir elin sevimlisinə çevirir. Çoxları onun mərdliyindən, fədakarlığından nümunə götürür.*



# Sən güvənc yerisən!..

(oçerk)

Bəli, bizim gənc qəhrəmanımızın da belə xoşbəxt taleyi vardır. O, ömrünün gənc çağlarında zirvədə dayanıb zirvəyə doğru yolunu davam etdirir. Gizir Nəcəfovla görüşümüz dağlar qoynunda düşmənlə üzbəüz postda idi. Şəxsi heyətə təlimat verən Vətən oğlu torpaqlarımızı işğaldan azad etməyə hazırlaşan bahadırı xatırladırdı. Sıranın müqəddəsliyinə hörmət edərək təlimatın qurtarmasını gözləyirik...

- Necə oldu ki, taleyini hərbi işə bağladın? - maraqdan soruşdum.

- 27 mart 1985-ci ildə Ağdam rayonunda anadan olmuşam. Müddətli hərbi xidmətimi də cəbhə xəttində keçirmişəm. Əmim Əli Nəcəfov torpaqlarımızın işğaldan azad edilməsi yolunda şəhid olub. Yurd-yuvamızdan ayrı düşməyimiz - Vətən həsrəti, düşmən gülləsinə tuş gələn əmimin ruhu məni rahat buraxmırdı. Bir sözlə, qəribsədiyim və bizim üçün qəribsəyən ata-baba ocağımız məni çağırırdı elə bil... Vətənin çağırışını eşitməyən şəxs vətəndaş olma haqqını itirir. Hərbçi peşəsini seçməyə qərar verdim.

- Doğulub boya-başa çatdığın torpağı necə xatırlayırsan?

- Tez-tez Vətən həsrətli yuxular görürəm. Yuxuda babam məndən soruşur: "Qəbrimi ziyarətə nə vaxt gələcəksən?" Nə deyim? Ordumuzun bugünkü gücünə güvənərək deyirəm ki, qələbə sevincimiz mütləq gerçəkləşərək Qarabağ həsrətimizə son qoyulacaq. Qarabağ, ata-babalarımızın qəbirləri düşmən tapdağı altında qalmayacaq! Mən də böyüklərimin qarşısında qürurla dayanacaq, qalib ordunun hərbi qulluqçuları kimi onlara belə bir sevinc yaşatdığıma görə taleyimdən razı qalacam.

Hesab edirəm ki, şəxsi heyətin vətənpərvərlik tərbiyəsində gizir Nəcəfov kimi təcrübəli hərbçilərimizin həyat və döyüş yolunun öyrənilib təbliğ olunması səmərəli olardı. Ailəlidir, iki övlad atasıdır. Öz bənzərsizliyi və ləyaqəti ilə şəxsi heyətinin hörmətini qazanan bir ata cəmiyyətə ləyaqətli övladlar da təqdim edir. Bu aksiomdur.

- Övladlarının tərbiyəsində hansı xüsusiyyətlərə üstünlük verirsən?

Gizir Nəcəfov cavabına ümummilli liderimiz Heydər Əliyevin "ən şərəfli peşə Vətəni, torpağı, qorumaq peşəsidir" sözləri ilə başlayır. "Övladlarımı vətənpərvərlik ruhunda böyüdür və gələcəkdə şərəfli peşənin-hərbçi peşəsinin daşıyıcıları olmasını istəyirəm. Bugünkü gəncin sabahın qəhrəmanı olmasını istəyirsənsə, mütləq onu vətənpərvərlik ruhunda böyütməlisən. Qeyd etdiyim prinsipi həyat məsləkim hesab etdiyim üçün övladlarımı da bu ruhda böyütməyə çalışıram."

- Doğru buyurur. Komandir hərbi xidmətə gəlmiş gəncə vətənpərvərlik dərsi keçməli deyil. Ordu mühitində olan gənc döyüş silahları ilə rəftar qaydalarını və hərbi xidmətin digər sirlərini öyrənməlidir, - deyə zabit Emin Vəliyev söhbətimizə müdaxilə edir.

- Əsgərlərinlə fərdi söhbətləri hansı prinsiplər əsasında qurursan? - deyə gizirlə söhbətimə davam edirəm.

- Tabeliyimdə olan şəxsi heyətlə mütəmadi olaraq fərdi söhbət aparıram. Söhbət əsnasında əsgərlərimi kəşf etməyi bacarıram.

- Elə əsgərlərin olubmu, onları bu gün də xatırlayırsan? - sualına cavabı isə sadə oldu.

- Bəli. Bu gün də əlaqə saxladığım əsgərlərim var. Kamran Paşayev kimi əsgərlərdən ayrılmaq mənim üçün çox çətin olur. Əsgərlərimlə ilk olaraq dost olmağa çalışıram. Əsgərlərimizə Vətənin ən dəyərli övladları olduqlarını xatırladıram. "Sən ən müqəddəs vəzifəni yerinə yetirirsən. Xalqımızın, dövlətimizin güvənc yerisən" - deyirəm. Belə söhbətdən sonra əsgərdə nəcib, ülvi hisslər baş qaldırır. Xalqına, dövlətinə gərəkliyini anlayır. Bu hisslərin aşılandığı əsgər, şübhəsiz bacarıqlı və qürurlu olacaq.

Söhbətimizin bu yerində səngərlərimizə baş çəkmək məqsədilə ayağa qalxırıq. Səngərə - düşmənlə üz-üzə dayanan əsgərlərimizin yanına yaxınlaşırıq. Müqəddəs amalın daşıyıcıları olan Vətən oğulları ilə də görüşürük.

- Həmişə əsgərlərə deyirəm ki, sərhədin qorunması, Vətənin qorunması deməkdir.

Bu sözləri yenə də gizir Elçin Nəcəfov vurğulayır.

Bir daha əmin oluruq ki, əsgərlərimizin döyüş hazırlığı yüksəkdir. Onlar hər an düşmən hücumunun qarşısını almağa və yurdumuzu erməni qəsbkarlarından azad etməyə qadirdir.

Döyüş postundan ayrılmaq vaxtı gəlmişdi. Yurdumuza keşik çəkən zabit, gizir və əsgərlərlə sağollaşıb ayrılırıq. Xoş təəssüratlarla geri qayıdırıq. Ön xətdə gördüklərim xəyalımdan heç vaxt çıxmaz. Gizir Elçin Nəcəfov kimi oğullar xüsusilə. Qəhrəmanımızın bütün xidmətinə işıq salsaq görərik ki, onun qarşısında bir amal durur - Vətən sevgisi, vətəndaşlıq borcu! Xalqının ən çətin anlarında ona dayaq durub müqəddəs vəzifəsinin öhdəsindən ürək yanğısı, döyüşçü cəsarəti, xalqa, millətə məhəbbət hissi ilə gələ bilirsə, bu, onun həyatda ən böyük uğurudur. İnanıram ki, gizir Elçin Nəcəfov xidməti ilə ordumuzun düşmən üzərində tarixi qələbəsinə öz töhfəsini verəcək və xalqımıza bu xoşbəxtliyi yaşadanlardan olacaq.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Əsgər qardaşlar

Bu gün hər bir Azərbaycan vətəndaşının ürəyi Qarabağla döyünür və dilimizdə haqlı olaraq bir şüar səslənir: "Vətən Qarabağ, Qarabağ da Vətən deməkdir".

Milli dəyərlərimizin daşıyıcısı olan vətənsevər gənclərimizlə görüşmək üçün "N" hərbi hissəsinin döyüş postundayıq. Mətanət və igidliklə sinəsini düşmənə sipər edən Azərbaycan əsgərləri ilə görüş zamanı İmran və Əkbər Kazımzadə qardaşları ilə həmsöhbət oluruq. Şəki rayonunun Turan qəsəbəsində anadan olan əkiz qardaşlar yaxın günlərdə tərxis olunacaqlar.



İmran Kazımzadə gizirlik kursuna qəbul olunaraq yenidən hərbi qulluqçu kimi ordu sıralarına qayıtmaq istəyir və ön xətdə xidmət etməyi özünə şərəf bilir: "Mən xoşbəxtəm ki, Azərbaycan əsgəriyəm və torpaqlarımızın, Vətənimizin keşiyini çəkənlərdənəm. Düşmənlə üz-üzə səngərdə cəsur və qorxmaz əsgərlərlə eyni sırada dayanmaq mənə böyük qürur verir. Hər zaman başımı uca tutub deyə biləcəm ki, düşmənlə üzbəüz postda xidmət etmişəm".

- Xidmət zamanı öyrəndiklərim gələcək xidmətimə çıraq tutacaq, - deyir əsgər. - Əsgəri xidmətim müddətində məsuliyyətli olmağı, etibar qazanmağı, qazanılmış etibarı itirməməyi, postda ayıq-sayıq olmağı, bir sözlə, əsl döyüşçüyə xas olan xüsusiyyətləri öyrəndim. Hərbi xidmət adamı fiziki, mənəvi və psixoloji cəhətdən möhkəmləndirir. Ən əsası burada Vətən sevgisini, sözün əsl mənasında, dərk etdim.

Əsgər Əkbər Kazımzadə də söhbətə qoşulur, xidmət müddətində hərbi texnika ilə davranmağın sirlərini öyrəndiyini bildirir. "Zabitlərimiz döyüş hazırlığımızın yüksək səviyyədə olmasına çalışırlar. Yaxşı başa düşürük ki, məşğələlər keçməli, hərbi bilik və vərdişlərə dərindən yiyələnməliyik. Təlim və məşğələlər bizim hərbi səriştəmizi artırır. Qardaşım da, mən də qarşıya qoyulan tapşırıqları peşəkarlıqla yerinə yetiririk. Bəzilərinə elə gəlir ki, ön cəbhədə xidmət keçmək çətindir. Xidmətini başa vurmaqda olan bir əsgər kimi əminliklə deyə bilərəm ki, belə fikirlərin əsası yoxdur. Daim zabitlərimizin verdiyi tapşırıqları vaxtında icra etməyə, onların etimadını qazanmağa çalışırıq. Şəxsi heyət arasında nizam-intizam, qarşılıqlı münasibətlər yüksək səviyyədədir. Komandirlərimizin bizə güvəncinə əsaslanaraq etibar olunan ərazini göz bəbəyimiz kimi qoruyuruq. Ana dediyimiz Vətənimin uğrunda son nəfəsədək mübarizəyə hər an hazıram."

Xidmətlərini başa vurmağa hazırlaşan hər iki qardaş taqım komandirinin müavini gizir Elfaq Abdullayevin və manqa komandiri kiçik çavuş Vurğun Sayılovun bacarıqlı, tələbkar, vətənpərvər komandir olduqlarını bildirdilər.

- Qardaşın necə adamdır? - Bilmirəm, yoldaşlığım olmayıb! - Bu, bir el məsəlidir və yol yoldaşlığının necə məhrəm, müstəsna münasibət olduğunu, insanın xarakter və davranışına "güzgü tutan" bir meyar olduğunu isbatlayır. Əkiz qardaşlar qardaş olmaqla yanaşı, silahdaş da oldular. Qardaşlıq səngərdə möhkəmləndi.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

*Düşüncələr*

# Həcər ana

Türkiyənin tele-kanallarından birində izlədiyim "Söyütlü Həcər ana" bədii filminin təsiri ruhumdan üzülmür. Nədən üzülmür?..

Film böyük bir mətləbə açardı. Baxdıqca düşüncələrin tarixin dünəniylə bu günü arasında mənəvi bağlılığa sarılır. Var səsinlə "Var olmuşuq, varıq, var olacağıq!" - qışqırmaq, cazibəsinə düşdüyün mətləbi dünyanın irili-xırdalı sıxıntılarına qurtuluş eləmək istəyirsən...

"Açıq qapı" günündə bir anadan eşitdiyim kəlmələri unutmamışam: "Əsgərlik yaşına çatan oğul Vətənin oğlu olur. Hərbi xidmətə gedir, xidmət edir. Ana görür ki, böyütdüyü, boya-başa çatdırdığı oğul ona başucalığı gətirir." Bu fikirləri söhbətləşdiyim anaların hamısından eşitmişdim. Bu filmə baxandan sonra qət elədim ki, onların hər biri Həcər anadı...

Zamanın geriyə dönüşü olmasa da, "Söyütlü Həcər ana" filmi baxanı yüz il əvvələ aparır, yüz il əvvəl yaşamış anaların düşüncələri düşüncələrinin bülövü olur. Yüz il əvvəl yaşamış yeniyetmələrin ruhunun eynini görürsən bugünkü yeniyetmələrin ruhunda. Görürsən və bir daha əmin olursan ki, qoca dünya bu ruhun üstündə yel əsdirə bilməz!..

Hər əsərin ideyalılığı onun məzmunundadı. Hansı janrda yazılmasından asılı olmayaraq yaxşı əsər-məzmunlu əsər həm düşüncələrin sığalına dönür, həm də düşündürür. Bu düşündürmə "xeyirli fikirlərə, xeyirli əmələ" (Zərdüst peyğəmbər) meyillidi... Xeyir kəlməsi milli-xəlqi ruhun ad daşıyıcısı kimi anlanılmalıdı...

İstiqlal savaşında beş-üç kəlməsiylə adı tarixə düşən türkdü Həcər ana. Zamanında dediyi kəlmələr on illərlə yaşadılıb, mənəviyyat işığı kimi yaşadılacaq da...

Ötən əsrin əvvəlləridi. Çanaqqalada ağır, çox ağır döyüşlər gedir; canlı qüvvə gərəkdi, ərzaq çatışmır. Səlahiyyətli zabit yardım üçün Söyütlü kəndinə gəlib. Kimi pal-paltar verir, kimi "iki kartof, beş soğan", kimi sonuncu çörəyini, kimi nişan üzüyünü, kimi damazlıq saxladığı quzunu ("Tütək səsi" bədii filmindən bizə tanış məqamdı), ...

Səlahiyyətli zabit döyüşə könüllü getmək istəyənlərin ad-soyadını yazır. 50-60 yaşlı üç kişi, bir gənc yazılır. Baxışları camaatın arasında dayanmış qızdan üzülməyən 17-18 yaşlı gənc ona yaxınlaşır:

- Məni də yaz!

Zabit atası, iki qardaşı, əmiləri şəhid olmuş Mahmudu yazmaq istəmir:

- Neçə evin başıpapaqlısı bir sənsən. Yaza bilmərəm...

Gənc inadkarlıq edir, zabit "yumşalmaq istəmir". Onda adamların sırasından çıxan ana bir qədər çılğınlıqla, bir qədər acıqlı səslə:

- Niyə yazmırsan mənim oğlumu? - deyir. - Əli sağ, ayağı sağ. Atasının, qardaşının, əmilərinin qisasını o almayanda kim alacaq? Mənim oğlum Vətənin dar günündə odaya çəkilib yata bilməz! Mənim oğlum Vətənə can əsirgəməz. Yaz, Mahmud Hüseyn oğlu!..

Film məni duyğulandırdı. Ananın hər kəlməsini Vətən sevgisinə and bildim. Bu and milli-xəlqi ruhla "bağrıbadaşdı".

Həcər analar indi də var...

Oğlu şəhid olan analar Ana səbriylə "Vətən sağ olsun..." - deyir. "Kitabi-Dədə Qorqud"da Uruzun anası Burla Xatuna dediklərini necə xatırlamayasan? Neçə-neçə yüz illər keçsə də, şəhid ruhları analarına eyni mətləbi deməkdədi: təki qada sovuşsun...

Həcər ana ilə eyni illərdə Azərbaycanda, Borçalıda yaşayan analar da bu düşüncələrlə yaşayıb:

Borçalıda erməni-müsəlman davasında oğlu şəhid olan Tükəzban ana qızlarına "təpinib", "Ağlamayın. El (*Vətən - R.H.*) yolunda canından keçən qardaşınız atasının, qardaşının ruhunu gileyli eləmədi..." - deyib...

90-cı illərdə Qarabağda elan edilmədən başlayan müharibə məmləkətimizə minlərlə Həcər anaları tanıtdı. Minlərlə Mahmudlar döyüşlərə könüllü getdi, minlərlə Həcər analar evində "başıpapaqlı" qalmasa da, sonbeşiyini uğurlayıb döyüşlərə yola saldı. O analar da işğal niyyətinin "gözlərini ovcuna tökülməsini" istəyirdi.

Aprel döyüşlərində şəhid anaları da ağrı-acını Vətənin "köynəyindən keçirdi"; Vətənə oğul olmağı bacarmayan oğul el-obasına da, ata-anasına da başucalığı gətirə bilməz. Ana səbri, ana dözümü, ana ürəyinin böyüklüyü səssiz kəlmələri belə deyir, belə düşündürür...

"Söyütlü Həcər ana" bədii filmdir. Ssenari müəllifinin mövzunu həyatdan aldığına zərrəcə şübhəm yoxdu. 100 ildən sonra Azərbaycanda minlərlə Həcər ana, minlərlə Mahmud olduğunu xatırlatmaq istədim.

Sülh danışıqları baş tutmazsa, Azərbaycanda əli silah tutanlarımızın hərəsi bir Mahmud olacaq, hər Mahmud Samid, Hikmət olmağa hazırdı. Gecələrimizi bu inamla sübh eləyirik. Dan yerini allandıracaq bir xəbərin təşnəsiyik. Həcər analar da, Mahmudlar da, biz də...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## Çin qarşıdakı illərdə kosmosa 100 peyk göndərəcək



Çin qarşıdakı 10 il ərzində kosmosa müxtəlif təyinatlı təxminən 100 peyk göndərməyi planlaşdırır. Bu barədə Çin Milli Kosmik Administrasiyası məlumat yayıb.

Çin 2030-cu ilədək kosmonavtika sahəsində ən inkişaf etmiş ölkələr sırasına daxil olmağı qarşıya məqsəd qoyub. Bununla əlaqədar olaraq ölkənin kosmik sənayesinin inkişafı ilə bağlı xüsusi plan hazırlanıb.

## Mərkəzi Afrika Respublikasında BMT-nin 2 sülhməramlısı öldürülüb




Mərkəzi Afrika Respublikasında BMT sülhməramlılarına hücum nəticəsində iki hərbçi ölüb, iki nəfər yaralanıb.

Hadisə ölkənin cənub-şərqində yerləşən Bria şəhərində baş verib. Silahlı dəstə BMT-nin avtomobil karvanını müşayiət edən sülhməramlılara hücum edib. İki mərakeşli hərbçini öldürən və digər iki nəfəri yaralayan dəstə üzvləri hadisə yerindən qaçmağa nail olublar.

Öldürülən hərbçilər BMT-nin Mərkəzi Afrika Respublikasında sabitləşmə üzrə beynəlxalq missiyasının (MİNUSKA) üzvləridir.

## 2016-cı ildə İraqda 6,8 mindən çox dinc sakin həlak olub



2016-cı ildə İraqda 6878 nəfər dinc sakin həlak olub, 12388 insan yaralanıb.

Bu barədə BMT-nin İraqa yardım üzrə missiyası məlumat yayıb.

Missiya bildirir ki, bu məlumata hələ ölkənin qərbindəki Ənbar vilayətində may, iyul, avqust və dekabr aylarında insanların həlak olması ilə bağlı faktlar daxil edilməyib.

## Dünyada rekord tutuma malik fləş-kart təqdim edilib



"Kingston" şirkəti 1 və ya 2 terabayt tutuma malik "DataTraveler Ultimate GT" daşıyıcısını istehsal edib.

İstehsalçı iddia edir ki, bu fləş-kart dünyada ən rekord tutuma malikdir. Fləş-kartın ölçüsü bir qədər böyükdür. Qurğu 2017-ci ilin fevralında satışa çıxarılacaq. Hələ ki qiyməti açıqlanmasa da, ucuz olmayacağı güman edilir. Qurğu ən aktiv səyahətlər zamanı məlumatların bütövlüyünü qorumaq məqsədilə möhkəm metal korpusla təchiz edilib. Fləş-kart yalnız "USB 3.1" interfeysini dəstəkləyir.

## Mərkəzi Avropada güclü qar hava limanlarının işini pozub



Mərkəzi Avropaya güclü qar yağıb. Buna səbəb olan siklon hazırda Balkan yarımadasına doğru hərəkət edir.

Çexiya, Slovakiya, Macarıstan, Avstriya və Polşada qar səbəbindən iri avtomagistrallarda və dəmir yollarında hərəkət dayanıb. Xüsusi texnika davamlı yağan qarı təmizləməyə imkan tapmır. Slovakiyada baş verən iki böyük qar uçqunu nəticəsində yollar keçilməz vəziyyətə düşüb, dağ rayonlarında aşırımlar bağlanıb.

Əlverişsiz hava şəraiti ilə əlaqədar yolnəqliyyat hadisələrinin də sayı artıb. Bir çox hava limanının işi pozulub.

**AZƏRTAC-ın materialları əsasında**



*Xalq şairi Xəlil Rza Ulutürkün "Azadlığı istəmirəm qram-qram, Qolumdakı zəncirləri gərək qıram!" deyirdi. Bu misralar hamının əqidə misralarıydı. Xalq müstəqillik mübarizəsinə bu misraların işığında çıxmışdı...*

*Redaksiyamızın poçtundan*

# Müqəddəs kədər

Azərbaycanda milli-azadlıq hərəkatı genişlənmişdi. Ermənistanın Azərbaycandan ərazi iddiası ilə daha da coşan, dərnəklər səviyyəsindən açıq ümumxalq mübarizəsi səviyyəsinə çatan mübarizə imperiyanı təşvişə salmışdı. Ermənilərin Ağdamda iki uşağı - Əlini və Bəxtiyarı öldürməsi bu hərəkatın dönməzliyinə stimul oldu. Bunları sonralar bildim. Rus imperiyasının 1990-cı il yanvarın 19-u gecəsi törətdiyi qətliamı da sonralar eşitdim. Oxuduqlarımdan, televiziya verilişlərindən öyrəndim ki, imperiya Bakıda, Bakıya yaxın rayonlarda Alma-Atada, sonra Tbilisidə törətdiklərindən də dəhşətli qırğın törədib. Həmin gecə yüzlərlə əliyalın insan güllələnib, yaralıları xəstəxanalara aparan "Təcili yardım" maşınları güllələnib. Mənzilinin artırmasına çıxan yaşlı qadınlar güllələnib. Qocalar, uşaqlar güllələnib...

Yanvarın 22-də şəhidlərimiz Dağüstü Parkda - sonralar Şəhidlər xiyabanı adlandırılacaq yerdə dəfn edilib. Xalq şəhidləri Hökumət Evinin qarşısından Xiyabana kimi çiyinlərində aparıb. Yollar boyunca şəhidlərə qədərsiz ehtiram nişanəsi kimi qərənfillər düzülüb. 26 ildi 20 Yanvar faciəsi ümumxalq kədəriylə anılır. Bu kədər müqəddəs kədərdir. Şəhidlərimizə, şəhidliyə görə müqəddəs kədərdir...

Milli-azadlıq hərəkatı imperiyanın süquta uğramasıyla nəticələndi. Bu hərəkatın alovunu söndürmək istəyən imperiyanın siyasi dayaqları özünün əsarət, ilhaq, gözəgötürməzlik, millətçilik tonqalında yandı.

Qanlı şənbə gecəsi təsdiqlədi ki, heç bir qadağa, hədə-qorxu, əsarət maşını Azərbaycanda xalqın iradəsindən, mübarizə əzmindən, sədaqətindən üstün ola bilmədi. Bu xalq minillik tarixi olan dövlətçiliyinin imperiyanın siyasət məngənəsində sıxılmasına dözə bilməzdi. Dözə bilmədiyi üçün də ayağa qalxdı. "Ya azadlıq, ya ölüm!" harayı hamını mübarizə yoluna çıxartdı. Yeganə silahı vətənsevərlik olan, müstəqillik, azadlıq istəyi olan minlər, milyonlar axışmışdı meydana. Bu meydan indi Azadlıq meydanı adlanır. Hamımız bu adı iftixarla deyirik. Azadlığımızın meydanından başlanan yol xalqı müstəqilliyinə çatdırdı...

Şəhidlər xiyabanına tələbə yoldaşlarımla, rəfiqələrimlə mən də getmişəm. Şəhidlərimizi mən də dəfələrlə ziyarət etmişəm. Hər dəfə hamımız orda düşünmüşük: əgər o vaxt-lar dünyada olsaydım, müstəqillik harayına çıxanların sırasında mən də olardım. Xalqını sevən bir yeniyetmə kimi, gənc kimi...

Hidayətin tərtib etdiyi "Şahidlər" kitabını həyəcansız oxumaq mümkün deyil. O gecə ruslar nələr eləyib?! Güclə yeriyən şikəsti də güllələyib, kiminsə əlindən tutub evinə tələsən koru da, yaralıya yardım eləyənləri də, haraya çatanları da...

Bu ağrı xalqın qürurunu əyə bilmədi. Xalq müstəqillik mübarizəsini davam etdirdi. Az sonra Azərbaycanda müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi...

Şəhidlik azadlığa aparan yoldur...

Şəhidlik milli ruhun yaşamı üçündür...

Bir vaxtlar oxuduğum misraları xatırlayıram:

*...bu şəhidlik*
*bir görk oldu yerə-göyə...*
*Müstəqillik istəyirsə,*
*Millət gərək*
*hazır olsun şəhidliyə!..*

**Şəbnəm BEHBUDZADƏ**

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş şahmat turniri

*C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuş şahmat turniri başa çatdı. Turnirin bağlanış mərasimində ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*

Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov çıxışında bildirdi ki, Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızın xatirəsinə həsr olunmuş idman yarışlarının keçirilməsi ənənə halını alıb. "Bu yarışlarda kursantlar fəal iştirak edirlər. Belə tədbirləri keçirməkdə əsas məqsəd həm kursantlarda hərbi vətənpərvərlik tərbiyəsini daha da yüksəltmək, həm qəhrəman oğullarımızın xatirəsini yad etmək, həm də idmanı gənclərə sevdirməkdir.

Şahmat turniri Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuşdu. Bir vaxtlar Elşad bizim məktəbimizdə təhsil almışdı. Onu qəhrəmanlığa aparan yol başlanğıcını buradan götürüb. Bildiyiniz kimi, şahmat fiziki deyil, intellektual bir yarışmadır. Başqa birinciliklərdə qələbə qazanmaq üçün güc lazım olursa, burada ağıl, zəka köməyə çatır. Kursantlar yarış boyu çox gərgin oynadılar, komandalarını irəli çıxarmaq üçün bütün bacarıqlarını ortaya qoydular. Bu gün qalibləri mükafatlandırmaq üçün toplaşmışıq. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə sizi ürəkdən təbrik edir, xidmətinizdə yeni-yeni uğurlar arzulayıram."




Hərbi liseyin idman rəisi Fərhad Əliyev turnirdə qalib gələn komandaları və şəxsi birincilikdə yüksək yerləri tutan kursantların adlarını elan etdi. Məlum oldu ki, 8-ci bölüyün kursantları turnirin qalibi oldular. 2-ci yerə 2-ci bölüyün kursantları, 3-cü yeri 5-ci bölüyün kursantları tutublar.

Şəxsi birincilikdə isə 1-ci yerə kursant Yusif Məmmədov, 2-ci yerə Əkbər Abdullayev, 3-cü yerə Mərdan İlyasov çıxıblar.

Qaliblərə kubok, medal və fəxri fərmanlar təqdim edildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# İdman

## Yeddi sərbəst güləşçimiz beynəlxalq reytinq cədvəlində ilk onluqda qərarlaşıb



Dünya Güləş Birliyi (DGB) ötən ilin yekunlarına əsasən 2017-ci ilin ilk reytinq siyahısını açıqlayıb.

Sərbəst güləşçilərimizdən 15-i DGB-nin reytinq siyahısında yüksək yerlər tutub. Onlardan 7-si öz çəki dərəcəsində ilk onluğa daxil ola bilib.

Rio Yay Olimpiya Oyunlarının gümüş medalçıları Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq) reytinqdə 2-ci sırada qərarlaşıblar. Olimpiadanın bürünc medalçıları Hacı Əliyev (61 kq), Cəbrayıl Həsənov (74 kq) və Şərif Şərifov (86 kq) reytinq siyahısında 3-cüdür.

Qeyri-Olimpiya çəki dərəcəsində dünya çempionatının bürünc medalçısı Əhmədnəbi Qvarzatilov (61 kq) da reytinqə 3-cü sıradan daxil olub. Camaləddin Məhəmmədov (125 kq) da onluğa daxil olub.

## Azərbaycan şahmatçısı beynəlxalq turnirdə növbəti qələbəsini qazanıb



Brisben şəhərində şahmat üzrə "Australian Open" beynəlxalq turniri davam edir.

Yarışda ölkəmizi təmsil edən Kənan İzzət dördüncü turda yerli şahmatçı Corc Lester ilə qarşılaşıb. Rəqibini məğlub edən şahmatçımız turnirdə üçüncü qələbəsini qazanıb. Hesabında 3 xal olan K.İzzət 8-24-cü pillələri bölüşür. Bütün görüşlərini qələbə ilə başa vuran avstraliyalı Maks İllinqvorts və Qene Nakauçi, özbəkistanlı Temur Kuybokarov liderlər qrupunda yer alıblar.

## Azərbaycan kikboksçusu "Kunlun Fight 56" turnirinə qələbə ilə başlayıb



Kikboksinq üzrə Azərbaycan millisinin və "Qəbələ" idman klubunun təmsilçisi Pərviz Abdullayev Çinin Sanya şəhərində təşkil olunan "Kunlun Fight 56" turnirinə qələbə ilə başlayıb.

75 kiloqram çəki dərəcəsində çıxış edən dünya çempionumuz reytinq xarakterli döyüşdə Çin idmançısı Ma Şuo ilə qarşılaşıb. P.Abdullayev döyüşdə 3:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb.

## Kişi voleybolçularımız beynəlxalq turniri üçüncü pillədə başa vurublar



Lüksemburqda kişi voleybolçulardan ibarət milli komandaların iştirakı ilə Yeni ilə həsr olunmuş "Novotel Cup-2017" beynəlxalq turnirinə yekun vurulub.

Turnirdə millimiz ilk oyununu İslandiya komandasına qarşı keçirib və qələbə qazanıb - 3:1. Baş məşqçi Fərid Cəlilovun rəhbərlik etdiyi komandamız ardıcıl iki oyunda Lüksemburq və Almaniya yığmalarına 2:3 hesabı ilə məğlub olub. Hesabında 7 xal olan Lüksemburq millisi yarışın qalibidir. Almaniya millisi 6 xalla gümüş, Azərbaycan isə 5 xalla bürünc medala sahib olub. İslandiya voleybolçuları yarışı sonuncu pillədə başa vurublar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əliyev Alim Oruc oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1
Nüsxə 4650